**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Qərar № 21-q
“19” “oktyabr” 2015-ci il
**Sədr**

_________________________

**R. Aslanlı**

# Emitentin istiqraz buraxılışının maksimum həcminə dair tələblər haqqında Qaydalar

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununun 3.8-ci maddəsinə müvafiq olaraq hazırlanmışdır və emitentin istiqraz buraxılışının maksimum həcminə dair tələblər haqqında qaydaları müəyyən edir.

1.2. Bu Qaydalar dövlət orqanları və bələdiyyələr tərəfindən emissiya edilən və ya yalnız institusional investorlara təklif olunan istiqrazlara şamil edilmir.

1.3. Bu Qaydalarda istifadə olunmuş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. **emitent** - istiqrazların emissiyasını “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirən hüquqi şəxs;

1.3.2. **institusional investor** – investisiya şirkətləri, investisiya fondları və

onların idarəçiləri, əsas fəaliyyətini qiymətli kağızlara investisiyalar təşkil edən şəxslər, kredit təşkilatları, sığortaçılar, pensiya fondları və onların idarəçiləri, digər tənzimlənən maliyyə institutları, əmtəələrin və onlar üzrə törəmə alətlərin dilerləri, beynəlxalq maliyyə təşkilatları, dövlətlər, mərkəzi banklar;

1.3.3. **təmin edilməmiş istiqrazlar** - onlardan irəli gələn öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilməyən istiqrazlar;

1.3.4. **təmin edilmiş istiqrazlar** - onlar üzrə öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazlar;

1.3.5. **xalis aktivlər (kapital)** - bütün öhdəliklər çıxıldıqdan sonra emitentin aktivlərinin qalıq dəyəri.

## 2. İstiqraz buraxılışın maksimum həcminə dair tələblər

2.1. İstiqrazların buraxılışının maksimum həcmi aşağıdakı düsturlar sistemi ilə hesablanır:

$$Mn < \begin{cases} T_n, \text{ təminat olduqda} \\ k * A - \sum_{i=1}^{n-1} (B_i - C_i), \text{ digər hallarda} \end{cases}$$

**M** - nəzərdə tutulan təmin edilməmiş istiqraz buraxılışının həcmi;

**T** - təmin edilmiş istiqrazlar üzrə təminatın dəyəri;

**k** - təmin edilməmiş istiqraz buraxılışının maksimum həcmi normativinin əmsalı. İstiqraz buraxılışının maksimum həcminin xalis aktivlərin dəyərinə nisbətdə tənzimlənməsi üçün tətbiq olunur;

**Bi** - hər bir əvvəlki istiqraz buraxılışının yerləşdirilmə prosesində olan, habelə yerləşdirilmiş, lakin ödənilməmiş hissələrinin məcmu nominal dəyəri;

**Ci-** hər bir əvvəlki təmin edilmiş istiqraz buraxılışının yerləşdirilmə

prosesində olan, habelə yerləşdirilmiş, lakin ödənilməmiş hissələrinin məcmu nominal dəyəri;

**n** - emitentin yerləşdirilmə prosesində olan, habelə yerləşdirilmiş, lakin ödənilməmiş istiqraz buraxılışlarının sayı;

**A** - emitentin xalis aktivlərinin dəyəri.

2.2. Azərbaycan Respublikasında qeydiyyata alınmış uzunmüddətli kredit reytinqi dərəcəsinə malik olmayan və ya uzunmüddətli kredit reytinqi dərəcəsi bu Qaydaların 2.3-cü bəndində müəyyən edilmiş reytinq dərəcəsindən aşağı olan emitentlər üçün təmin edilməmiş istiqrazlar buraxılışının maksimum həcm normativinin əmsalı 2 (iki) müəyyən edilir.

2.3. Azərbaycan Respublikasında qeydiyyata alınmış və ən azı "BBB -" ("Standard&Poor's" və "Fitch" reytinq agentliklərinin klassifikasiyasına görə), "Baa3" ("Moody's" reytinq agentliyinin klassifikasiyasına görə) və ya digər reytinq agentliklərinin bu reytinq dərəcələrinə ekvivalent olan, uzunmüddətli kredit reytinqi dərəcəsinə malik emitentlər üçün təmin edilməmiş istiqrazlar buraxılışının maksimum həcm normativinin əmsalı 3 (üç) müəyyən edilir.

2.4. Ən azı "BBB -" ("Standard&Poor's" və "Fitch" reytinq agentliklərinin klassifikasiyasına görə), "Baa3" ("Moody's" reytinq agentliyinin klassifikasiyasına görə) və ya digər reytinq agentliklərinin bu reytinq dərəcələrinə ekvivalent olan, uzunmüddətli kredit reytinqi dərəcəsinə malik xarici emitentlər üçün Azərbaycan Respublikasının ərazisində təmin edilməmiş istiqrazlar buraxılışının maksimum həcm normativinin əmsalı 3 (üç) müəyyən edilir.

2.5. Bu Qaydaların 2.4-cü bəndi ilə müəyyən edilmiş uzunmüddətli reytinq dərəcəsindən aşağı reytinq dərəcəsinə malik olan və ya uzunmüddətli kredit reytinqi dərəcəsinə malik olmayan xarici emitentlər üçün Azərbaycan Respublikasının ərazisində təmin edilməmiş istiqrazların emissiyasına yol verilmir.

2.6. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmamış istiqraz buraxılışlarının reklamı, hər hansı bir investora rəsmi təklif edilməsi, emissiya prospektinin potensial investorlara təqdim edilməsi və yerləşdirilməsi qadağandır.

2.7. Bu Qaydaların tələblərinə cavab verməyən emitentlərin istiqraz buraxılışlarının dövlət qeydiyyatına alınmasına və ya onların istiqrazlarının və ya istiqrazlara hüquqları təsdiq edən qiymətli kağızların yerləşdirilməsinə və ya tədavülə buraxılmasına yol verilmir.